

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 225 (21.126)

26 noyabr 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də BBC Global News-un baş icraçı direktoru Cim İqanı qəbul edib.

BBC Global News-un baş icraçı direktoru Cim İqan rəhbərlik etdiyi qurumun fəaliyyəti və beynəlxalq əməkdaşlıq sahəsində gördüyü işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

Dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın əldə etdiyi iqtisadi uğurlar, müstəqillikdən sonra sürətli iqtisadi inkişaf proseslərinə nail olunması, ölkəmizdə azadlıq və demokratiyanın təmin edilməsi istiqamətində görülən işlər, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı, respublikamızın energetika sahəsində qazandığı nailiyyətlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışdı. Prezident İlham Əliyev Azərbaycanın zəngin tarixi, mədəniyyəti, inkişaf prosesləri barədə obyektiv və qərəzsiz informasiyanın çatdırılmasının önəmini vurğuladı.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Noyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Oksford məktəbinin yeni binasının açılışında iştirak edib.

## Naxçıvan Muxtar Respublikası 1970-1980-ci illərdə sürətli sosial-iqtisadi inkişaf dövrünü yaşayıb

*Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etməyə başladığı 1969-cu ildən etibarən ölkəmizdə bütün sahələrdə sürətli inkişaf nəzərə çarpdı. Həmin dövrdən etibarən Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da canlanma baş verdi.*



Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində 8 nömrəli tam orta məktəbin şagirdləri üçün “Naxçıvan Muxtar Respublikasının 1970-1980-ci illərdə sosial-iqtisadi inkişafı” mövzusunda keçilən açıq dərsdə bu barədə ətraflı danışılıb.

Bildirilib ki, 1970-ci ildən başlayaraq Naxçıvan ölkənin inkişaf edən sənaye, kənd təsərrüfatı regionuna çevrildi. Burada elektrotexnika, metal emalı, yüngül sənaye və tikinti sənayesi inkişaf etdi. Kənd təsərrüfatı sahəsində üzümçülük, tütünçülük, bağçılıqla yanaşı, taxılçılıq və heyvandarlığın da inkişafı sürətləndi. 1971-ci ildə ümumi sənaye potensialının həcmində 1924-cü illə müqayisədə 150 dəfə artım müşahidə olundu. Naxçıvanda Araz Su Elektrik Stansiyası, mebel fabriki istifadəyə verildi. Muxtar respublikanın rayonlarında şərab, Ordubadda Konserv, Şahbuzda Badamlı, Babək rayonunda Sirab Mineral Sular zavodları fəaliyyətə başladı.

Qeyd edilib ki, həmin dövrdə yüngül sənaye sahəsində də bir sıra mühüm irəliləyişlər baş verdi. Bunlara Ordubad İpək Kombinatının, Naxçıvan Tikiş Fabrikinin istifadəyə verilməsini nümunə göstərmək olar.

Vurğulanıb ki, bu gün Naxçıvan Muxtar Respublikası inkişafın yeni, çoxşaxəli mərhələsini yaşayır. Bu inkişafın təməlində ulu öndər Heydər Əliyevin əsasını qoyduğu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi siyasət dayanır.

Sonra şagirdlər muzeyin ekspozisiyası ilə tanış olublar.

## Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş hüquq olimpiadası başa çatıb

*Noyabrın 25-də Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Naxçıvan Muxtar Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən hüquq olimpiadasının yekunu ilə bağlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq belə olimpiadaların keçirilməsinin əhəmiyyətindən danışıb.*



Tədbirdə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramovanın “Naxçıvanın muxtariyyət statusu: tarixi və hüquqi aspektlər” mövzusunda məruzəsi dinlənilib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi istər ölkəmizdə, istərsə də muxtar respublikamızda təntənəli surətdə qeyd olunur. Bu dövr ərzində muxtariyyətin möhkəm siyasi və hüquqi bazasının formalaşması, muxtar respublikamızın böyük bir inkişaf yolu keçməsi həmin tədbirlərdə önə çəkilir.

Vurğulanıb ki, Naxçıvanın muxtariyyət statusunun möhkəmləndirilməsində ötən illər ərzində qəbul edilmiş konstitusiyaların böyük rolu olub. 1926, 1937, 1978, 1998-ci illərdə qəbul edilmiş konstitusiyaların hər biri Naxçıvanın muxtariyyət statusundan irəli gələn normaları özündə ehtiva etməklə muxtar ərazi statusunun möhkəmləndirilməsində, sabit dövlət quruculuğunun formalaşmasında, idarəçiliyin təkmilləşdirilməsində başlıca amil kimi çıxış edib.

Xalqımızın ümummilli lideri Heydər Əliyev ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvana rəhbərlik etdiyi dövrdə, eləcə də Azərbaycan Respublikasının Prezidenti olduğu illərdə Naxçıvanın muxtariyyət statusunun möhkəmləndirilməsi istiqamətində mühüm strateji addımlar atıb.

Diqqətə çatdırılıb ki, 1998-ci il dekabrın 29-da qəbul olunan Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının birinci maddəsi ilə Naxçıvan muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublika kimi müəyyən edilib ki, muxtariyyətinin 90 ili ərzində Naxçıvan heç zaman belə yüksək statusa malik olmayıb. Ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri nəticəsində Naxçıvanın muxtariyyət statusu müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında və Naxçıvan Muxtar Respublikasının hazırda qüvvədə olan Konstitusiyasında öz əksini tapıb.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev “Muxtariyyət illərində Naxçıvanın təhsil sisteminin inkişafı” mövzusundakı məruzəsində qeyd edib ki, ötən 90 ildə muxtar respublikada həyatın bütün sahələri ilə yanaşı, təhsilin inkişafında da bir sıra uğurlar qazanılıb. Son 19 ilə nəzər salsaq, görərik ki, tarix üçün qısa zaman kəsiyi olan bu dövrdə təhsil sahəsində on illərə bərabər yol keçilib: məktəblər üçün müasir tələblərə cavab verən yeni binalar inşa edilib; təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirilib; şagirdlərin ixtiyarına elektron lövhələr, kompüter dəstləri verilib. Bütün bunlar təhsilin səviyyəsinin yüksəldilməsinə şərait yaradıb.

Bildirilib ki, hazırda ümumtəhsil məktəblərində 600-ə yaxın elektron lövhədən, 84 faizi internet şəbəkəsinə qoşulmuş 3409 kompüterdən istifadə edilir. Ümumtəhsil məktəblərində təhsil alan əlaçı şagirdlərdən 773 nəfərinə Ali Məclisin Sədri tərəfindən kompüter dəstləri və noutbuklar hədiyyə olunub.

Bu il ali və orta ixtisas məktəblərinə keçirilən qəbul imtahanlarında iştirak edən məzunlardan 1725-i, yəni sənəd verənlərin 55,4 faizi tələbə adını qazanıb. Ali məktəblərə qəbul olan məzunların 347-si imtahanlarda daha yüksək nəticə göstərərək 500-700 intervalında bal toplayıb. Olimpiadanın nəticələri də bir daha onu göstərdi ki, bu gün muxtar respublikanın bütün orta, orta ixtisas və ali məktəblərində yüksək intellektual səviyyəyə malik gənclər təhsil alırlar.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının şöbə müdiri Abil Orucəliyev çıxışında olimpiadanın təşkili, keçirilməsi və yekunu barədə məlumat verib. Bildirilib ki, iki turdan ibarət olan hüquq olimpiadasının I turunda 677 şagird, 178 tələbə iştirak edib.

Olimpiadanın I turunun nəticələrinə görə, muxtar respublikanın tam orta məktəblərini təmsil edən 677 şagirddən 76-sı, ali təhsil müəssisələrini təmsil edən 87 tələbədən 33-ü, orta ixtisas təhsili müəssisələrini təmsil edən 91 tələbədən 25-i 30 və daha çox bal topladıqlarına görə münsiflər heyətinin qərarı ilə II turda iştirak etmək hüququ qazanıblar.

Olimpiadanın II (yekun) turunda tam orta məktəblərdən 74 şagird, ali təhsil müəssisələrindən 31, orta ixtisas təhsili müəssisələrindən isə 25 tələbə iştirak edib.

Sonra hüquq olimpiadası qaliblərinin mükafatlandırma mərasimi keçirilib. Üç şagird muxtar respublikanın tam orta məktəblərindən, 3 tələbə orta ixtisas təhsili müəssisələrindən, 3 tələbə isə ali məktəblərdən olmaqla diplom və hədiyyələrlə mükafatlandırılıblar.

## Vətəndaş cəmiyyətinin inkişafında qeyri-hökumət təşkilatlarının rolu müzakirə edilib

***Dünən bu mövzuda Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi və İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının birgə təşkilatçılığı ilə keçirilən tədbiri Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat bölməsinin baş məsləhətçisi, kiçik ədliyyə müşaviri Səyyub Kərimov açıb.***



Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının İnsan hüquqlarının müdafiəsi şöbəsinin baş məsləhətçisi Asiman Abbasov “Qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyəti quruculuğunun vahid elementi kimi” mövzusunda çıxış edərək bildirib ki, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra qarşıda duran başlıca vəzifələrdən biri vətəndaş cəmiyyətinə və hüquqi dövlət quruculuğuna keçidi sürətləndirmək idi. 1993-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra ölkədə demokratiya, siyasi plüralizm və vətəndaş cəmiyyətinin qurulması əsas məqsədlər kimi müəyyən edildi. Vətəndaşları cəmiyyət və dövlətin həyatında fəal rol oynamağa səsləyən ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə ölkədə vətəndaş cəmiyyətinin inkişafı üçün tələb olunan normativ-hüquqi baza yaradılmağa və təkmilləşdirilməyə başlandı. Respublikamızda qeyri-hökumət və kommersiya təşkilatları olan ictimai birliklərin yaranması geniş vüsət aldı.

Qeyd edilib ki, Azərbaycanda qeyri-hökumət təşkilatları sektorunun fəaliyyətinə dövlət təminatı verən qanunvericiliyin əsası ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanan Azərbaycan Respublikasının Konstitusiyası olub. Bundan əlavə, məhz dahi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə 1999-cu ildə Milli Qeyri-Hökumət Təşkilatları Forumunun təsis olunması müxtəlif sahələri əhatə edən yüzlərlə qeyri-hökumət təşkilatlarının cəmiyyətimizdəki demokratik proseslərə qoşulmasına, onların dövlət orqanları və beynəlxalq qurumlarla səmərəli əlaqələrinin qurulmasına geniş imkanlar açıb.

Ötən müddət ərzində bu sahədə bir çox hüquqi islahatların aparıldığını deyən məruzəçi bildirib ki, muxtar respublikamızda da bütün sahələrdə olduğu kimi, vətəndaş cəmiyyəti institutlarına da xüsusi diqqət və qayğı göstərilir, bu sahədə təqdirəlayiq addımlar atılır. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında qeyri-hökumət təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 16 may tarixli Fərmanı bunun bariz nümunəsidir. Görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublikamızda bütün münasibətlər sahəsində ictimai təşkilatlar fəaliyyət göstərir, vətəndaşlar bu cür təşkilatlarda birləşərək öz maraqlarını təmin etməyə çalışırlar.

Ədliyyə Nazirliyinin Qanunvericilik şöbəsinin rəisi, ədliyyə müşaviri Ayaz Məhərrəmov “Qeyri-hökumət təşkilatlarının fəaliyyətinin müasir tələblərə uyğun qurulmasında həyata keçirilən tədbirlər” mövzusunda danışıb.

“Gənclərin Sosial Aktivliklərinin Artırılması Təşkilatı” İctimai Birliyinin təsisçisi Ayşən İmanlı sədrlik etdiyi qurumun yaradılma səbəblərindən bəhs edərək bildirib ki, bu ictimai birliyi yaratmaqda əsas məqsəd müxtəlif layihələr vasitəsilə Naxçıvan gənclərinin peşəkar idarəetmə, liderlik bacarıqlarının və biliklərinin artırılmasından, onların fəal vətəndaşlar kimi cəmiyyət həyatında iştiraka cəlbindən və gənclərin sosial problemlərinin həll edilməsindən ibarət olub.

Sonra tədbir iştirakçıları mövzu ətrafında fikir mübadiləsi aparıblar.

**Xəbərlər şöbəsi**

# Muxtariyyətin intibahı: 1995-2014

## Blokada şəraitində intibaha nail olmağın Naxçıvan modeli

***"İntibah" anlayışı hansısa bir tarixi inkişaf dövrünü əks etdirən termin kimi hələ orta əsrlərdə italyan mütəfəkkirləri tərəfindən işlədilib. "İntibah" oyanış, canlanma, dirçəlmə, yenidən yüksəliş deməkdir. İntibah o yerdə baş verir ki, orada bütün sahələrin kompleks inkişafına nail olunur. Bəşər tarixində blokada şəraitində intibah yaratmağın yeganə nümunəsi Naxçıvandır. Əlbəttə, intibaha aparan yol əvvəlcə iqtisadi inkişafdan keçir. İqtisadiyyat inkişaf etdirilməlidir ki, mədəniyyətin, təhsilin, səhiyyənin və digər sahələrin inkişafı təmin olunsun. Bu mənada Naxçıvanın intibah tarixinin dərindən öyrənilməli və təhlil olunmalı məqamlarından biri iqtisadi inkişafın Naxçıvan modelidir. Bu modelin əsas uğuru isə blokada vəziyyətində, ölkənin əsas ərazisi ilə birbaşa əlaqənin olmadığı şəraitdə inkişafı təmin etməsi, eyni zamanda inkişafın davamlı xarakter daşıması və sürətli təkamül yolu ilə getməsindədir.***



İqtisadi və nəqliyyat əlaqələrinin məhdud olduğu şəraitdə yüksək iqtisadi fəallığa nail olunması, istehsal potensialının hərəkətə gətirilməsi, davamlı quruculuq işləri, sosial problemlərin həlli və ən əsası əhalinin rifah halının yaxşılaşdırılması inkişafın Naxçıvan modelinin xarakterik xüsusiyyətləridir. Məhz bütün bunlar tariximizin 1995-ci ildən sonrakı dövrünü "Muxtariyyətin intibah dövrü" adlandırmağımıza imkan verir. Blokadanın çətinliklərinə baxmayaraq, 1995-2014-cü illərdə muxtar respublikada böyük quruculuq proqramı gerçəkləşdirilib, bütün sahələrdə mühüm nailiyyətlər əldə olunub. Naxçıvan Muxtar Respublikasında son 19 ildə aparılan genişmiqyaslı quruculuq tədbirləri, regionun hərtərəfli inkişafı adilikdən uzaq, möcüzəyə bənzər həqiqətlərdir. Beş minillik şəhər mədəniyyəti tarixinə malik Naxçıvanın tarixində, çətin ki, son 19 il qədər heyrətamiz şücaətli bir dövr olsun. Bəs bu yüksəlişə necə nail olunub?

***"Əsas məsələ Vətən sevgisidir. İqtisadi imkanlar böyük də ola bilər, o qədər böyük olmaya da bilər. Amma əgər Vətən sevgisi varsa, məhdud iqtisadi imkanlarla da çox iş görmək olar".*** Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu sözləri blokada şəraitində yaradılan intibahın səbəblərini izah edir.

Hələ 1996-cı ildə keçirilən müşavirələrin birində ***"Yaxşı bəhanə tapıblar, hər nöqsanı, hər çatışmazlığı və özlərinin fəaliyyətsizliyini blokada ilə əlaqələndirirlər"***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov blokadanın inkişaf üçün əngəl olmadığını açıq-aydın bəyan edib.

Naxçıvanın inkişafdan intibaha qovuşması düzgün idarəetmənin nəticəsi, Vətən sevgisi, yurd sahibliyinin misilsiz nümunəsidir.

Həzrəti Məhəmməd Peyğəmbər hədislərinin birində buyurub: *"Vətəni sevmək imandandır. İnsanların ən yaxşısı camaatın xeyrinə çalışandır"*. Deməli, Vətən naminə çalışmaq ən savab, ən xeyirxah əməldir. Son 19 ilin nəticələri sübut edir ki, Naxçıvanda görülən işlər böyük vətənpərvərliklə həyata keçirilib və yalnız insan amilinə xidmət edib.

Dünya şöhrətli rus yazıçısı Lev Tolstoy yazırdı ki, *"Vətənpərvərlik təkcə Vətəni sevmək deyil. Bu daha dərin bir hadisədir. Bu, özünün Vətəndən ayrılmaz olduğunu dərk etmək, xoşbəxt və ağır günlərini onunla birlikdə yaşamaqdır"*. Ötən əsrin 90-cı illərinin əvvəllərində – ağır günlərdə muxtar respublika sakinləri bu torpağa qırılmaz tellərlə bağlı olduqlarını sübuta yetirdilər. Müasir Naxçıvanın indiki sevincli günlərində də belədir: insanlar qurub-yaradır, muxtar respublikanın daha da inkişaf etməsi üçün var qüvvə ilə çalışırlar.

Yeni Naxçıvan bugünkü firavan və xoşbəxt günlərinə asanlıqla nail olmayıb. Ötən əsrin 80-ci illərinin sonu və 90-cı illərinin əvvəllərində naxçıvanlılar çox əzab-əziyyətlər çəkiblər. Naxçıvan şəhərində yaşayan bir müəllimimin o dövrün çətinliyi ilə bağlı danışdığı hadisə yaddaşımdan heç vaxt silinməyəcək. Deyirdi ki, 90-cı illərin əvvəllərində mən ali məktəbdə oxuyurdum. Səhər tezdən dərsə getməmişdən əvvəl qardaşımla çörək növbəsinə gedirdik. Dəriəvəzedici materialdan hazırlanmış bir gödəkçəm var idi. Bir dəfə çox gözlədikdən sonra, nəhayət, çörək almaq növbəsi bizə gəlib çatdı. Yenicə sobadan çıxmış çörəyi satıcı mənə verəndə əlim yanmasın deyə, gödəkçəmin ətəyini qatlayıb onu tutdum. Bir neçə metr uzaqlaşmışdım ki, istidən gödəkçəmin əridiyinin fərqinə vardım. Çörək əlimdən yerə düşdü. Naxçıvanın o çətin və şaxtalı günlərində çörəksizlikdən dəhşətli heç nə yox idi. Evdəki hər kəs həmin gün çörəyin içini yeməyə məcbur olmuşdu.

XX əsrin 90-cı illərindəki vəziyyət, yağışın və qarın altında, Naxçıvanın sümüyə işləyən şaxtalı günlərində çörək növbələri, çörək növbəsi çatdıqda satıcının çörəyin qurtardığını deməsindən doğan dəhşət hissi, yaşın ki, oxucularımızın əksəriyyətinə tanışdır. Məhz belə bir vəziyyətdə yaşayan Naxçıvanda – elektrik enerjisinin günlərlə verilmədiyi, təbii qazın olmadığı, mövcud infrastrukturun iflic vəziyyətinə düşdüyü, ərzaq qıtlığının yarandığı muxtar respublikamızda cəmi 19 ildə intibaha nail olunub.

Vətən sevgisi üzərində ucaldılan müasir Naxçıvanda genişmiqyaslı tikinti və quruculuq işlərinin aparılması, yolların və körpülərin salınması, istehsal müəssisələrinin yaradılması, iqtisadiyyatın sürətli inkişafı, on minlərlə yeni iş yerinin açılması, məktəblərin, xəstəxanaların, idman komplekslərinin, kənd və xidmət mərkəzlərinin inşası, yaşayış binalarının yenidən qurulması, elektrik, qaz və su təminatının yaxşılaşdırılması regionda həyata keçirilən tədbirlərin yalnız görünən tərəfidir. Naxçıvanın işıqlı gələcəyi naminə elə möhtəşəm tədbirlər həyata keçirilir ki, bu gün biz onların mahiyyətini tam dərk edə bilmirik. Bu gün muxtar respublikada əksər ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbat daxili imkanlar hesabına ödənilir və Naxçıvanın ixrac potensialı günü-gündən genişləndirilir. Qarşıya qoyulan məqsəd muxtar respublika əhalisinin bütün məhsullara olan tələbatının yerli istehsal hesabına ödənilməsi və idxal məhsullardan asılılığın tamamilə aradan qaldırılmasıdır. Bu xüsusda muxtar respublikada əldə olunan ən böyük uğurlardan biri, bəlkə də, ən başlıcası regionun enerji və ərzaq təhlükəsizliyinin tam təmin olunmasıdır. Vaxtilə enerjiyə olan tələbatını idxal hesabına ödəyən Naxçıvan indi elektrik enerjisi ixrac edir. Muxtar respublika 100 faiz qazlaşdırılıb. Bu istiqamətdə görülən işləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: ***"Bu gün Naxçıvan nəinki özünü enerji ilə tam şəkildə təmin edir, hətta ixrac edir. Ən önəmlisi ondan ibarətdir ki, Naxçıvanın daxili təminatı 100 faiz bərpa olunan enerji növləri hesabına ödənilir. Bu da, deyə bilərəm ki, dünyada çox nadir hallarda müşahidə edilən bir mənzərədir"***.

Enerji təhlükəsizliyinin təmin olunması muxtar respublikada sənayenin inkişafına zəmin yaradıb. Vaxtilə Ümumi Daxili Məhsul istehsalında aqrar sahənin ağırlıq təşkil etdiyi muxtar respublika bu gün sənaye-aqrar regionuna çevrilib. Sənaye sahəsinin aparıcı mövqedə olduğu müasir iqtisadiyyatın qurulması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində son illər ciddi uğurlar qazanılıb. Fəaliyyəti dayandırılmış sənaye müəssisələrinin 1996-cı ildən başlayaraq fəaliyyətinin bərpa edilməsi və yeni istehsal sahələrinin yaradılması, nəticə etibarı ilə, əvvəllər istehsal olunmayan yeni sənaye məhsullarının istehsalına və ümumilikdə, sənaye məhsulu istehsalının dinamik artımına səbəb olub. Əgər 2003-cü ilin sonuna muxtar respublikada 66 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, 2013-cü ilin sonuna bu göstərici 7 dəfə artaraq 438-ə çatıb. 2003-cü illə müqayisədə 2013-cü ildə sənaye məhsulunun həcmi 49 dəfə artıb. Bu gün Naxçıvanda ərzaq məhsullarından tutmuş avtomobilə qədər, demək olar ki, hər şey istehsal olunur.

Sənaye ilə yanaşı, aqrar sahənin inkişafı da diqqət mərkəzindədir. Suvarma suyuna olan tələbatın ödənilməsi, aqrolizinq xidmətinin yaradılması nəticəsində kənd təsərrüfatı texnikaları ilə təminatın yaxşılaşdırılması əkinçini torpaqdan ikiəlli yapışmağa sövq edib. Bunun nəticəsidir ki, əkin sahələri və məhsul istehsalı ilbəil artırılır. Əkinəyararlı torpaqlar tam şəkildə əkin dövriyyəsinə qatılmaqla 2013-cü ilin məhsulu üçün 60 min 127 hektar sahədə əkin işləri həyata keçirilib. Strateji ərzaq məhsulu olan taxıl istehsalının artırılması ilə yanaşı, taxıl ehtiyatı anbarlarının qurulması ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edir.

Kənd adamının rifah halının yaxşılaşdırılması məqsədilə kənd təsərrüfatının inkişafı istiqamətində görülən işlərə paralel olaraq, əhalinin həyat şəraiti müasir standartlar səviyyəsinə çatdırılıb. Muxtar respublikanın kənd yaşayış məntəqələrində tikilib istifadəyə verilən müasir məktəb binaları, kənd və xidmət mərkəzləri, müasir tələblər səviyyəsində yenidən qurulan avtomobil yolları şəhərlə kənd arasındakı fərqin aradan qaldırılmasına, kəndlərdə şəhər rahatlığının yaradılmasına gətirib çıxarıb.

Hər hansısa bir regionun inkişafı, ilk növbədə, o yurdun təhsilli insanlarından asılıdır. Əgər təhsilli insanlar, mütəxəssislər varsa, bütün sahələrin inkişafına nail olmaq mümkündür. Odur ki, muxtar respublikada təhsilin inkişafı əsas vəzifələrdən biri kimi qarşıya qoyulub. Son 19 ildə muxtar respublikanın şəhər, qəsəbə və kəndlərində 300-dən çox təhsil müəssisəsi tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Muxtar respublikanın ən ucqar dağ kəndində tikilən məktəb binası ilə Naxçıvan şəhərində inşa olunan təhsil ocağı arasında heç bir fərq yoxdur.

Türkiyənin tanınmış alimlərindən professor İbrahim Ethem Atnur Naxçıvanda olarkən Şahbuz rayonunun Biçənək kəndində gördüyü məktəb binası barədə təəssüratlarını sosial şəbəkələrdə paylaşmışdı. Professor yazırdı: *"Naxçıvanın ucqar bir dağ kəndində beşmərtəbəli bir bina gördüm. Mənə dedilər ki, bura məktəb binasıdır. Heyrətləndim. Gəzdiyim ölkələrin heç birində ucqar dağ kəndində beşmərtəbəli məktəb binası görməmişdim. O məktəb binası bəzi Avropa ölkələrindəki universitet binalarından daha sanballı idi. Bu, öz xalqının təhsilli gələcəyini düşünən insanların Vətəninə böyük xidmətidir. Naxçıvan blokadaya baxmayaraq, sürətlə inkişaf edib. Orada 50 ilə görüləcək işlər 15-20 ildə görülüb"*.

Naxçıvanda təhsilin orta, orta ixtisas və ali təhsil pillələrinin inkişafı istiqamətində görülən işlər, tikilən məktəb binaları, yaradılan müasir universitet şəhərcikləri Azərbaycanın xoşbəxt gələcəyinə xidmət edir. Təhsil sahəsinə göstərilən böyük diqqət və qayğının nəticəsidir ki, bu gün ucqar Tivi, Ləkətağ, Şada və ya Havuş kəndlərindəki müasir məktəb binalarında təhsil alan şagirdlər ən son model kompüter texnologiyalarından istifadə edərək internet vasitəsilə dünyaya səyahət edir, ali məktəb müəllimləri və tələbələri isə heç bir çətinlik çəkmədən dünyanın ən qabaqcıl ölkələrinin universitetləri ilə videokonfrans əlaqəsi yaradırlar.

Təhsil sahəsində həyata keçirilən tədbirlər savadlı, dünyagörüşlü, vətənpərvər gəncliyin yetişdirilməsinə şərait yaradıb. Gənclərlə iş muxtar respublikada ciddi diqqət yetirilən sahələrdən biridir. Ona görə ki, ölkəmizin gələcəyi gənclərdən asılıdır. Hələ 1996-cı ilin fevral ayında keçirilən Naxçıvan Muxtar Respublikası Gənclərinin Birinci Forumunda bu sahədə görüləcək işlərin vacibliyinə diqqət çəkən Ali Məclisin Sədri demişdir: ***"Dövlət və ictimai təşkilatların yaxından köməyi olmadan gənclərin üzləşdikləri problemləri onların öz gücləri ilə aradan qaldıracaqlarını güman etmək yersizdir. Dövləti vəzifə ilə yanaşı, insanlıq borcunu da düşünmək lazımdır. Gəncliyin problemi hamımızın probleminə çevrilməli, sosial cəhətdən zəif olan bu təbəqəyə bacardığımız qədər kömək əlimizi uzatmalıyıq".***

Müasir Naxçıvanın intibah tarixinin əsasının qoyulduğu 1995-ci ildən sonra bu sahədə həyata keçirilən ardıcıl tədbirlər artıq öz bəhrəsini verməkdədir. Vətənə xidmət amalı ilə yetişdirilən bu günün gəncləri nazirdir, komitə sədridir, deputatdır, fəlsəfə və elmlər doktorudur, Avropa və dünya çempionudur, mükəmməl kompüter mühəndisidir, uğurlu açıq ürək əməliyyatı aparan həkimdir. İndi yetişən gəncliyin vətənpərvərlik tərbiyəsi çox yüksək səviyyədədir. Bu gün hər bir gəncin qarşısında bir tarixi vəzifə qoyulub: Vətənin keşiyində duraraq ona xidmət etmək, bununla ölkəmizin inkişafına nail olmaq, Azərbaycanın dövlət müstəqilliyini daha da möhkəmləndirmək.

Muxtar respublika rəhbərinin Vətən sevgisi, doğma torpağa bağlılığı, qətiyyət və iradəsi, böyük yaradıcılıq enerjisi hər kəsə nümunədir. Və bu nümunənin işığında böyük vətənpərvərlər ordusu, yaradıcı, qurucu gənclik yetişir. O gənclik ki gələcəkdə nəinki Naxçıvanı daha böyük tərəqqiyə qovuşdurmaq, onun zorla əlindən alınmış tarixi torpaqlarını belə bərpa etmək əzmindədir.

İstənilən yaradıcı, qurucu fəaliyyətin təməlində insan sağlamlığı dayanır. Ona görə də Naxçıvanda səhiyyənin inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Son 19 ildə muxtar respublikada 230 səhiyyə müəssisəsi üçün binalar tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində və rayon mərkəzlərində tikilib istifadəyə verilən xəstəxana binaları, kəndlərdə yaradılan həkim ambulatoriyaları müasir tibbi avadanlıqlarla təchiz olunub. Artıq ucqar Şahbulaq kəndinin sakini səhhətində yaranmış kiçik problem üçün, məsələn, təzyiqini ölçdürməkdən ötrü rayon mərkəzinə gəlmək, ürəyində ciddi qüsuru olan Naxçıvan şəhər sakini isə açıq ürək əməliyyatı olunmaq məqsədilə qonşu ölkələrə getmək məcburiyyətində deyil.

İnsanların sağlamlığının qorunmasına, ekoloji vəziyyətin daha da yaxşılaşdırılmasına istiqamətlənmiş tədbirlərdən biri də yeni yaşıllıqların salınmasıdır. Əgər ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikanın ərazisinin cəmi 1 faizi yaşıllıq idisə, hazırda Naxçıvanın ümumi ərazisinin 10 faizdən çoxunu yaşıllıqlar əhatə edir.

Muxtar respublika ərazisində təbii mühitin unikallığı, maddi-mənəvi sərvətlərin zənginliyi, flora və fauna müxtəlifliyi bu ərazilərin xüsusi qorunmasını zəruri edir. Ali Məclis Sədrinin müvafiq sərəncamları ilə "Arazboyu" Dövlət Təbiət Yasaqlığının və "Arpaçay" Dövlət Təbiət Yasaqlığının yaradılması flora və fauna ehtiyatlarının qorunmasına, ekoloji balansın təmin edilməsinə müsbət təsir göstərib.

İnsan amilinin daim ön planda olduğu muxtar respublikada xüsusi qayğıya ehtiyacı olanlar da diqqətdən kənarda qalmır. Qaçqın və məcburi köçkünlərə, mənzilə ehtiyacı olanlara mənzillərin verilməsi, müxtəlif dövlət qurumları tərəfindən mütəmadi olaraq xüsusi qayğıya ehtiyacı olan ailələrə baş çəkilməsi muxtar respublika əhalisi tərəfindən minnətdarlıqla qarşılanır.

Muxtar respublikadakı yeniləşmə və intibah yalnız tikinti-quruculuq işləri ilə məhdudlaşmır. Buna paralel olaraq, Naxçıvanın tarixinin öyrənilməsinə, tədqiq olunmasına da ciddi diqqət yetirilir.

Ardı 3-cü səhifədə

Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin təşəbbüsü ilə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması Naxçıvan tarixinin kompleks şəkildə araşdırılmasına və tədqiq olunmasına şərait yaradıb. Bu istiqamətdə görülən işlər yalnız tariximizin tədqiqi ilə məhdudlaşmayıb. Əldə olunan nəticələrin ictimaiyyətə təqdim edilməsi sahəsində də əhəmiyyətli işlər görülüb. İki cilddə "Naxçıvan Ensiklopediyası"nın, "Naxçıvan Abidələri Ensiklopediyası"nın, "Naxçıvan Tarixi Atlası"nın, üç cilddə "Naxçıvan tarixi"nin birinci cildinin və onlarla belə nəşrin işıq üzü görməsi dediklərimizə əyani misaldır. Vaxtilə tarixinin orta əsrlər dövrü belə, dərindən tədqiq edilməyən Naxçıvan bu gün 5 minillik şəhər mədəniyyətinə sahib olduğunu beynəlxalq aləmə ciddi elmi arqumentlərlə sübut edir. Naxçıvanın tarixi ilə bağlı aparılan tədqiqatların yekunları təkcə kitab nəşri ilə tamamlanmır. Bu elmi nəticələrin dünya ictimaiyyətinə çatdırılması istiqamətində də ardıcıl tədbirlər görülür. 1996-cı ildən bəri muxtar respublikada keçirilən beynəlxalq simpozium və konfranslar bu mənada xüsusi elmi əhəmiyyətə malikdir. İlkin yaşayışın və şəhərsalma yerinin arqumentləri kimi Naxçıvandakı tarixi abidələrin pasportlaşdırılması və bərpası işinə ciddi diqqət yetirilməsi, Naxçıvan Duzdağ mədəniyyətinin yeni elmi istiqamət kimi müəyyənləşdirilməsi doğma Vətən tarixinin düzgün araşdırılması zəruriliyinə diqqətdən qaynaqlanır.

Muxtar respublikanın mədəni həyatı da bu gün öz qaynarlığı ilə seçilir. Mədəniyyət müəssisələri üçün yaradılan şərait yeni-yeni uğurlara aparır. Bu gün muxtar respublikada Xalq Çalğı Alətləri, Kamera, Estrada orkestrləri fəaliyyət göstərir. Zəngin ənənələrə malik Naxçıvan teatrının inkişafı üçün mühüm qərarlar qəbul olunub, teatrın binası yenidən qurulub. Ali Məclis Sədrinin Naxçıvan teatrını himayə etməsi, aktyor və rejissorlarla birbaşa təmasda olması, onlara dəyərli tövsiyələrini verməsi bu sənət məbədinin yaradıcılıq uğurlarının daha da artmasına səbəb olub. Bu gün muxtar respublikamızda fəaliyyət göstərən xalq teatrları, musiqi kollektivləri insanların asudə vaxtının səmərəli təşkilində əhəmiyyətli rol oynayırlar.

Müasir Naxçıvanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də burada güclü hərbi kadr potensialının yaradılmasıdır. Muxtar respublikada gənc hərbi kadrların yetişdirilməsi məqsədilə Ali Məclisin Sədri təşəbbüs qaldırıb, ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Naxçıvanda Hərbi Lisey yaradılıb. Bu gün ulu öndər Heydər Əliyevin adını daşıyan Hərbi Liseyin məzunları Azərbaycan Ordusunda öz xidməti vəzifələrini şərəflə yerinə yetirirlər. Liseydə Naxçıvan torpağının yetirmələri olan Kəngərli generallarının layiqli davamçıları yetişir.

Muxtar respublikada hərbi kadrların yetişdirilməsi ilə yanaşı, ordunun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də ardıcıl tədbirlər görülür. Ölkə rəhbəri Naxçıvan Muxtar Respublikasına səfərlərinin birində hərbi quruculuq sahəsində burada görülən işləri yüksək qiymətləndirərək demişdir: ***"Ordu quruculuğu sahəsində Naxçıvanda çox böyük işlər görülür. Bu hərbi hissə Azərbaycandakı hər bir hərbi hissə üçün nümunə, örnək ola bilər. Burada olan şərait ən yüksək standartlara cavab verir. Azərbaycan Ordusu məhz bu cür olmalıdır".***

Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusunun yaradılması muxtar respublikanın təhlükəsizliyinin təmin olunmasına xidmət edən çox mühüm tarixi qərardır. Dövlət başçısının da dediyi kimi, indi Naxçıvan ordusu nəinki muxtar respublikanın sərhədlərini etibarlı müdafiə edir, həm də istənilən hərbi vəzifəni icra etməyə qadirdir.

Görülən işlər nəticəsində Naxçıvan Muxtar Respublikası blokadanı çoxdan yarıb. Şəhər və kəndləri sürətlə yeniləşən, beynəlxalq tədbirlər və idman yarışları keçirilən, ildə 350-400 min turisti qəbul edən, beşulduzlu otellər fəaliyyət göstərən, yerli xammala əsaslanan istehsal müəssisələri yaradılan, ixrac imkanları getdikcə artan, əhalisinin bütün sosial ehtiyacları ödənən, bir sözlə, blokada şəraitində intibah yaradan Naxçıvan üçün, sadəcə, sözdə blokada anlayışı var. Muxtar respublikamıza gələn qonaqların əksəriyyətinin yekdil fikri belədir: Naxçıvan sürətli inkişaf yolundadır, bura çox təmiz və təhlükəsiz regiondur. Bütün bunlara görədir ki, amerikalı jurnalist Mark Hey Naxçıvanı Qafqazın San-Fransiskosu, sloveniyalı jurnalist Stefano De Françesçi qədim diyarımızı müasir inkişaf və tərəqqi göstəricisi, Naxçıvanın əksər xarici qonaqları buranı Azərbaycanın Strasburqu adlandırıb.

Müasir Naxçıvan ümummilli liderimiz Heydər Əliyevin görmək istədiyi kimi qurulur. Ulu öndərimiz hələ 1996-cı il oktyabrın 30-da muxtar respublika ictimaiyyətinin nümayəndələri ilə görüşündə Naxçıvanda işlərin düzgün qurulduğunu bildirərək demişdi: ***"Naxçıvan Muxtar Respublikasının rəhbərliyi tərəfindən son vaxtlar həyata keçirilən tədbirlər şəxsən məni sevindirir. Onların müsbət nəticəsi sizin gözünüz qarşısındadır. Mən bu barədə mütəmadi olaraq məlumatlar alıram və bu işlərə nəzarət edirəm. Amma eyni zamanda dünən də, bu gün də Naxçıvan şəhərində artıq baş vermiş böyük müsbət dəyişiklikləri və burada yaranmış mühiti, əhval-ruhiyyəni görərkən daha da çox sevinirəm. Hesab edirəm ki, Naxçıvan Muxtar Respublikasının dövlət rəhbərliyi düzgün yoldadır. Siz birlikdə bu yolla böyük nailiyyətlər əldə edə biləcəksiniz".***

Bu tarixi çıxışdan 18 il sonra Azərbaycan Prezidenti cənab İlham Əliyev deyəcəkdi: ***"Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir. Hesab edirəm ki, bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri – quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır".***

Vətən, yurd sevgisinin, torpaq təəssübünün nəticəsi budur. Çəkilən zəhmətin itmədiyi nümunəvi bir regionda artıq bizi nə düşmən blokadası, nə qarlı qış, nə boş mağaza vitrinləri, nə də çörək növbələri qorxudur. Əgər iqtisadi cəhətdən yüksək səviyyədə inkişaf etmiş, əhalisinin bütün ehtiyacları ödənilən, daimi elektrik enerjisi, təbii qazı, təmiz suyu olan, təhlükəsiz bir yerdə firavan ömür sürmək, qapını da qıfıllamadan rahat yaşamaq istəyirsənsə...

***Bura Naxçıvandır.***

**Naxçıvanlılar Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyini böyük sevinc hissi ilə, möhtəşəm uğurlarla qeyd edirlər. Unutmayaq ki, bu uğurlar blokada şəraitində qazanılıb. Əgər blokada olmasaydı, Naxçıvanla inkişafı müqayisə olunacaq yer çətin tapılardı.**

**Tural SƏFƏROV**

## Axurada insana böyük qayğının ifadəsi olan bir ünvan var...





**Şərur rayon mərkəzindən kilometrlərlə uzaqda bir sərhəd kəndi var. O kəndin mərkəzində bir-birinə sığınan evlərdən biri ilk anda diqqəti cəlb edir. Yaşı 70-i haqlamış bir nənə yaşayır bu mənzildə. Yazımın qəhrəmanı elə həmin nənədir – Quba Abbasova. Onunla görüşmək, bu ahıl qadını oxucularımızla daha yaxından tanış etmək istəməyimiz təsadüfi deyil. Çünki muxtar respublika rəhbərinin göstərişi ilə Quba nənə üçün fərdi yaşayış evi tikilərək ötən ay onun istifadəsinə verilib...**

Gedəcəyimiz ünvana çatmazdan əvvəl məni rahat buraxmayan fikirlərlə baş-başa idim. Düşünürdüm ki, insan ömrü çox qəribədir. Gənc yaşlarında nə qədər tək olsan belə, onun fərqinə varmırsan. Gözünü yumub açırsan ki, ömürdən illər su kimi axıb gedib. Onu da deyim ki, taleyə, qismətə inanan adam olmamışam. Fikrimcə, insan taleyini özü yaradır, alın yazısını özü yazır, taleyini və alın yazısını özü yaşayır. Bəs yaşlaşıb tənha qalmağa, ahıl çağında tək yaşamağa məcbur olan insanlar necə? Burada bir az fikirləşməli olursan. İnsan özü istəmədən bəzən həyat onu tənhalığa sürükləyir, bu ömrü yaşamağa vadar edir. Ara-sıra onu görməyə, hal-əhval tutmağa gələnləri çıxsaq, yeknəsəq bir həyat tərzini təsəvvür etmək çətin deyil.

Bu gün muxtar respublikamızda belə insanlar çox azdır. Onların bir təsəllisi var. Bilirlər ki, dövlətimiz arxalarında dayanıb. Doğmalarının bu qəbildən olan insanlara etmədiklərini, göstərmədikləri qayğını dövlətimiz göstərir, onların problemlərinin həllini diqqətdə saxlayır. Quba nənə onlardan biridir.

Budur, Quba Abbasovanın evinin qarşısındayıq. Təmiz həyət-bacası, səliqəli bağ-bağçası ilk baxışda belə qənaət yaradır ki, burada böyük bir ailə yaşayır. Ancaq evin qapısını döyəndə gəldiyim qənaətin yanlış olduğunu anlayıram. Qapıya xüsusi geyimli bir qadın çıxır. Öyrənirəm ki, bu, Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin Sosial xidmətlər sektorunun əməkdaşıdır.

– Buyurun, kim lazımdır? – deyə soruşur. "Quba Abbasova", – deyib qeyri-ixtiyari açıq qapıdan içəri boylanıram. Quba nənə yaylığının ucunu tez düyünləyib ağır addımlarla qapıya tərəf gəlir, bizə "xoşgəldin" eləyir. Mətbuatdan gəldiyimizi bilən Quba nənə sevinir:

– Ay qızım, ürəyimdə deyiləcək sözlərim çoxdur. Nə yaxşı gəldiniz. Öz eviniz kimi ürəyiniz harada istəyir, əyləşin.

Quba nənəyə çox sual verməyə çəkinirəm. Kövrək insan olduğunu hiss edirəm. Dəqiqələrcə bu insana baxıram. Oxucuların nəzərinə çatdırım ki, onlarla insandan müsahibə götürmüşəm, müxtəlif suallarla onlara müraciət etmişəm. Bu gün ilk dəfə idi ki, müsahibimə sual verməkdə çətinlik çəkirdim. Hardan başlayım, necə başlayım? İllərin acılı-şirinli günlərinin dərin iz buraxdığı simasına, əllərindəki dağ cığırlarına bənzəyən qırışlara gözüm dikilib qalır. İllər bu insana öz sözünü deyib. Quba Abbasova elə bil ki, ona vermək istədiyim sualları sözsüz başa düşür.

Öyrənirəm ki, Quba nənə 1932-ci ildə Şərur rayonunun Çomaxtur kəndində anadan olub. 1964-cü ildə Axura kəndinə gəlin köçüb. İki qız övladı dünyaya gətirib. Bir müddət sonra həyat yoldaşı dünyasını dəyişib. Quba nənənin övladlarından umacağı yoxdur. Hərəsi bir evdə, bir ocaqdadır. Mütəmadi olaraq Quba nənəyə baş çəkirlər. Onun dediklərindən:

– Ürəyim sözlə doludur. Hər kəs istər ki, yaxşı evdə yaşasın. Əvvəllər evim yaşayış üçün o qədər də yaxşı deyildi. Bütün çətinliklərə baxmayaraq, bu evdə yaşayırdım. Qızlarım dəfələrlə məni yanlarına aparmaq istəyiblər. Amma mən bu evə alışdığım üçün düşünürdüm ki, elə buradan da son mənzilə gedəcəyəm. Bir gün gəlib dedilər ki, Quba nənə, evin yenidən tikiləcək. İnanın ki, inanmağım gəlmədi. Uşaq kimi sevinirdim. Yaşlı bir insan üçün bundan böyük sevinc ola bilərdimi? Balaca nəvələrimi qürurla bu evdə qarşılayacağam. Mən qəzet vasitəsilə dövlətimizə minnətdarlığımı bildirirəm.

Quba nənə əlavə edir:

– Həyətimdə səliqə-sahmanı gördünüz. Mən tək öz gücümə belə səliqə yarada bilərəmmi? Sağ olsun, dövlətimizi. Mənə hər cür qayğı göstərirlər. Tez-tez evimə gəlirlər, sovqat gətirirlər, səhhətimlə maraqlanırlar, həyət-bacə işlərində əlimdən tuturlar, dərmanımı alırlar, məni darıxmağa qoymurlar…

***Quba nənəylə söhbətimi yekunlaşdırıram. Elə qapıdan ayrılanda bir ixtiyar qoca bizə yaxınlaşır. Öyrənirik ki, 83 yaşlı Vəli baba da bu kəndin sakinidir. Quba Abbasova üçün tikilmiş ev bütün axuralıların sevincinə səbəb olub. Bunun üçün dövlətimizə minnətdarlığını bildirdi.***

**Sara ƏZİMOVA**

*Muxtar respublikamızın davamlı sosial-iqtisadi inkişafının təmin olunması abadlıq-quruculuq işlərinin də xeyli sürətlənməsinə imkan yaradıb. İndi diyarımızın elə bir bölgəsi yoxdur ki, orada genişmiqyaslı abadlıq-quruculuq işləri və yaşıllaşdırma tədbirləri həyata keçirilməsin. Məhz bunun nəticəsidir ki, şəhər və rayonlarımızın siması günbəgün dəyişir, gözəlləşir.*

## Ağac əkmək nəcib iş, savab əməl sayılır

*Sədərək rayonunda bu vacib məsələyə xüsusi diqqət göstərilir*



Əlbəttə ki, yaşıllıq zolaqları salınmadan, ağac əkilmədən ekoloji mühitin qorunmasından söhbət gedə bilməz. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş iclasında ölkə Prezidenti cənab İlham Əliyev bu vacib məsələyə toxunmuş, ölkənin hər yerində ağac əkilməsini, yaşıllıqların salınmasını tövsiyə etmişdir.

Sərhəd bölgəsi Sədərək rayonunda da yeni yaşıllıqların salınmasına xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ekoloji tədbirlərin gücləndirilməsi, yaşıllıqların salınması ilə bağlı tapşırıqlarının icrası məqsədilə Sədərək Rayon İcra Hakimiyyətində tədbirlər planı işlənib hazırlanıb. Xatırladaq ki, 2014-cü ilin payız mövsümünü əhatə edən həmin tədbirlər planında rayonun qəsəbə və kəndlərində, ümumilikdə, 4990 ağacın əkilməsi nəzərdə tutulub. Artıq noyabrın 8-dən bu vacib kampaniyaya start verilib.

Ağacəkmə kampaniyasında rayonun bütün idarə və təşkilatlarının, təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin, özəl bölmələrin nümayəndələri ilə yanaşı, sakinlər də yaxından iştirak edirlər. Bu da təsadüfi deyil. Rayonda abadlıq-quruculuq işləri sahəsində həyata keçirilən tədbirləri sakinlər minnətdarlıqla qarşılayırlar. Bunun nəticəsidir ki, rayonda yaşından, peşəsindən asılı olmayaraq, hamı bu kampaniyaya həvəslə qoşulur.

Bölgədə keçirilən son şənbə iməciliyində də yeni yaşıllıq zolaqları, bağlar salındı. İməcilik iştirakçıları onlara həvalə olunmuş sahələrdə əkdikləri ağaclara sanki sığal çəkir, qulluq göstərirdilər.

Bu ayın əvvəlindən Heydərabad qəsəbəsi və Qaraağac kəndinin hərəsinin 1,5 hektar, Sədərək kəndinin isə 0,5 hektar sahəsi kolkosdan təmizlənib, şumlanıb, bütövlükdə, 3,5 hektar sahədə yeni meyvə bağı salınmasına başlanılıb. Həmin ərazilərdə böyük qələbəlik var idi.

Min nəfərdən çox sakinin iştirak etdiyi iməcilikdə, 4 minə yaxın yeni meyvə ağacı – ərik, alça, göycə və alma tingləri əkilib.

Bu ilin yazında isə 15 hektar sahədə meşəsalma və 2,5 hektar sahədə bərpa işləri aparılıb. Həmin sahələrə 8030 ağac əkilib ki, bunun da 7870 ədədi meyvə tingi olub. Park və xiyabanlara isə 160 ədəd həmişəyaşıl ağac, 250 ədəd gül kolu əkilib.

... Yaşıllıq təmizlik, sağlam həyat deməkdir. Yeni əkilmiş ağaclara, yaşıllıq zolaqlarına xüsusi qulluq və qayğı göstərmək isə nəcib iş, savab əməllərdən sayılır. Çünki bu gün əkilən hər bir ağac boy ataraq, son nəticədə, sağlamlığımızın, istirahətimizin təminatına çevrilir.

**Cəfər ƏLİYEV**

**Azərbaycan qadını iti zəkası, uzaqgörənliyi və qəhrəmanlığı ilə tariximizdə iz qoyub: Azərbaycan Atabəylər dövlətinin başçısı Şəmsəddin Eldənizin xanımı Mömünə xatın, Gəncədə yaşayıb-yaradan Məhsəti Gəncəvi, Ağqoyunlu hökmdarı Uzun Həsənin anası Sara xatın, Quba xanı Fətəli xanın həyat yoldaşı Tutubikə, Heyran xanım, Qönçəbəyim, Nazlı xanım Nəcəfova və daha neçələri ...**



# Qızlar məktəbində...

Qadın anadır. Ana isə gələcəyimiz olan körpələrimizin ilk müəllimi, ən böyük tərbiyəçisidir. Bu səbəbdən qadınlarımızın savadlanması hər zaman çox vacib məsələlərdən biri olub; bu mənada maarifçi-ziyalılarımız Azərbaycan qadınının da təhsil almasına çalışıb və bu uğurda mübarizə aparıblar. Azərbaycan qadınının fəaliyyəti xalqımızın milli-mədəni ənənələrinin qorunub saxlanılması və zənginləşməsinə xidmət edib. Fədakar, mərd Azərbaycan qadınlarının qəhrəmanlıq xatirələri tariximizin şərəfli səhifələrindəndir. Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi zərurəti yüksək əxlaqi və mənəvi keyfiyyətləri, vətənpərvərliyi və Vətənə hədsiz sədaqəti ilə seçilən gənclərin yetişdirilməsini diktə edir. Məhz bu cür gəncliyin formalaşması ən əvvəl ailənin, xüsusilə ananın üzərinə düşən əsas vəzifələrdəndir.

Hal-hazırda Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Naxçıvan Qızlar Liseyi bu baxımdan qızlarımızın gələcəyə hazırlanmasında böyük rola malikdir. Lisey son illər yeni binaya köçürülüb. Burada təhsil alan 335 şagirdin təlim-tərbiyəsi ilə 68 müəllim və tərbiyəçi məşğul olur.

Məktəblə daha yaxından tanış olmaq üçün Naxçıvan Qızlar Liseyini ziyarət etdik. Oranın səliqə-sahmanı diqqətimizi çəkən ilkin faktorlardan oldu. Liseydəki şagirdlərin səliqəli məktəbli geyimlərinə baxa-baxa və hansısa sinif otağından gələn həzin musiqiyə qulaq asa-asa qeyri-ixtiyari Hüseyn Cavidin bu misralarını söyləməyə başladım:

– Quzum, yavrum! Adın nədir?
– Gülbahar.
– Pəki, sənin anan, baban varmı?
– Var.
– Nasıl, zənginmidir baban?
– Əvət, zəngin, bəyzadə...
– Öylə isə geydiyin geyim neçin böylə sadə?
Yoxmu sənin incilərin, altun bilərziklərin?
Söylə, yavrum! Heç sıxılma...
– Var əfəndim, var,.. lakin
Müəlliməm hər gün söylər, onların yox qiyməti,
Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti…

İlk olaraq bizi bu gözəl tədris ocağının uğurları maraqlandırdı. Bunun üçün məktəbin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Aidə Allahverdiyeva ilə söhbətləşməyi qərara aldıq. O, son uğurları sadalayarkən qeyd etdi ki, məktəbi 26 şagird bitirib. Onlardan 24-ü ali, 2-si isə orta ixtisas təhsili müəssisələrinə qəbul olunub. Məzunlarımızın əksəriyyəti universitetlərə yüksək balla qəbul olunublar.

Liseydə diqqətimizi çəkən digər təqdirəlayiq hal isə burada fəaliyyət göstərən dərnəklər oldu. Bu dərnəklərdə şagirdlər öz estetik zövqlərinə uyğun fəaliyyətlərlə məşğul olmaq imkanı qazanırlar. Dərnəklərdən əlavə, mənəviyyat, kulinariya, tikiş, toxuculuq, xalçaçılıq kimi əlavə fəaliyyət sahələri və şagird elmi cəmiyyəti fəaliyyət göstərir. Şagirdlər bu yolla biliklər axtarışında olur, gələcəyə hazırlanırlar. Bu, şagirdlərin müşahidə qabiliyyətini təkmilləşdirir. Aidə xanımdan şagirdlərə verilən axtarış mövzuları haqqında xəbər aldıq. Mövzular belə idi: "Naxçıvanın 5 minillik şəhər tarixi və Naxçıvan ekologiyası", "Məhəmməd Tağı Sidqi: həyat və yaradıcılığı" və sair.

Məktəbdə şagirdlər üçün maraqlı layihələr həyata keçirilir, onların muzeylərə və digər maraqlı məkanlara ekskursiyaları təşkil edilir. Məktəbdə olduğumuz zaman IX sinif şagirdlərinin Hüseyn Cavidin ev-muzeyində açıq dərsdə iştirak etdiklərini dedilər. Dahi dramaturqun yaşadığı evdə məktəbli qızlara onun irsi və həyat yolundan danışılacaq, onun yaşadığı mühitdən bəhs ediləcək.

Liseyin Naxçıvan Muxtar Respublikası Film Fondu ilə müqaviləsi var. Aidə xanım dedi ki, biz hər həftə şagirdlərimizə bir Azərbaycan filmi izlədirik, məsələn, keçən həftə şagirdlərimiz "Koroğlu" bədii filmini izləyiblər.

Qeyd edə bilərik ki, bu cür təşəbbüslər şagirdlərə maraqlı təhsil imkanı yaradır. Onlar həm də vizual bilik əldə edirlər.

Burada həm də diskussiyalar təşkil edilir. Bu diskussiyalar yarış xarakterlidir və uşaqların nitq qabiliyyətinin inkişafına güclü təsir edir. Bu diskussiyalara ziyalılar dəvət edilir, şagirdlər maraqlandıqları mövzuları birbaşa mütəxəssislərin dilindən eşitmək imkanı qazanırlar. Liseydə qrafik üzrə müəllimlərin şagirdlərlə söhbətləri təşkil olunur, bu söhbətlərin məğzi belədir: milli-mənəvi dəyərlərə hörmət edən, milli adət-ənənələri qoruyan, vətənpərvər, intellektual səviyyəli Azərbaycan xanımları hazırlamaq.

Biz məktəbin yaradıcılıq otaqlarında şagirdlərin əl işləri ilə tanış olduq. Divarlardan asılmış bədii tikmə sənətinin nümunələri, milli dəyərlərimizin əks olunduğu rəsmlər, xalça nümunələri gözümüzü və könlümüzü oxşadı. Liseydə milli dəyərlərimiz təbliğ olunur. Biz əminik ki, bu reallığı düzgün dərk edib dəyərləndirən Azərbaycan qadını gələcək analıq missiyasını şərəflə həyata keçirərək vətənpərvər və milli-mənəvi dəyərlərə bağlı vətəndaşlar tərbiyə edəcək. Müstəqilliyimizin əldə olunmasından sonra həyata keçirilən mədəniyyət siyasəti milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasına əsaslı zəmin yaradıb. Xalqımızın əldə etdiyi bu böyük nailiyyət milli sərvətimiz olan dəyərlərimizin bəşəri dəyərlərin tərkib hissəsi kimi inkişafını və inteqrasiyasını təmin edib.

Gənc nəslin Azərbaycançılıq ideyaları ruhunda tərbiyəsi nailiyyətlərimizin təminatçısıdır. Əsrlər boyu xalqımız böyük mənlik şüuru, əxlaqi dəyərlərə sədaqəti sayəsində, bütün təsirlərə baxmayaraq, öz dilini, dinini, milli adət-ənənələrini qoruyub saxlaya bilib. Gənclərimizin düzgün təlim-tərbiyəsinə, fiziki və mənəvi inkişafına töhfəsini vermək Azərbaycan qadınının ən böyük nailiyyətidir ki, Qızlar Liseyində biz bu nailiyyətin şahidi olduq. Bu gün qadının sosial vəziyyətinin yüksəlməsi daha parlaq surətdə cəmiyyətin bütün fəaliyyət sahələrində özünü büruzə verir. Bu proses hər ölkədə özünəməxsus şəkildə həyata keçirilir. Qadın cəmiyyətin əsas dayaqlarından biridir desək, səhv etmiş olmarıq. Yazını böyük dramaturqumuz Hüseyn Cavidin misraları ilə tamamlamaq istərdik:

*Qadın gülərsə, şu ıssız*
*mühitimiz güləcək,*
*Sürüklənən bəşəriyyət*
*qadınla yüksələcək!*

Nərgiz İSMAYILOVA

**Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Hüseyn Əsgərovun Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyində nəfis şəkildə və yüksək poliqrafik səviyyədə işıq üzü görmüş "Aylı bir gecə" kitabı haqqında təəssüratlarımı qələmə almaq fikrimi qətiləşdirəndə yadıma həmin kitaba Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigarın yazdığı "Ön söz"ün başlığı düşdü: bu kitabı oxumağa dəyər.**




*Yeni nəşrlər*

# Mirzə Cəlil işığında

## "Aylı bir gecə"dən doğan təəssüratlar

Ədəbi prosesə, dövri mətbuatla maraqlananlar Asim Yadigarın qənaətinin mayasında nəyin durduğunu ilk anda hiss etməmiş olmazlar. Məsələ ondadır ki, çağdaş dövrümüzdə şair və ya yazıçılıq iddiasında olanların müxtəlif nəşriyyatlarda çap etdirdikləri kitabların böyük əksəriyyəti ədəbi kriteriyaların tələblərinə cavab verə bilmir və ən pisi də odur ki, həm onların, həm də həmin "əsərlərin" sayı yağışdan sonra bitən göbələklər kimi getdikcə artır. Belə "əsərlər" zövqümüzü korlamaq, qiymətli vaxtımızı almaqdan başqa heç nəyə yaramır. Bu barədə mətbuat orqanlarında, yüksəksəviyyəli ədəbi məclislərdə kifayət qədər bəhs olunduğundan gileyimizə buradaca nöqtə qoyuram. Haqqında bəhs etmək istədiyim kitabın isə özünə geniş oxucu auditoriyası toplayacağına və stolüstü kitaba çevriləcəyinə heç bir şübhəm yoxdur.

Yaşadığımız ədəbi mühitdə, dövlət mətbuat orqanlarında və teleradiolarda Hüseyn Əsgərov özünü uzun müddətdir ki, təsdiq edirib. Yüzlərlə yazısı və verilişləri ilə tanıdığımız Hüseyn Əsgərovun yaradıcılığından keçən qırmızı xətt bir amala söykənir: insanın daxili-mənəvi aləminin canlı portretini sözün gücü və qələmin köməyi ilə yaratmaq və oxuculara təqdim etmək, bugünkü reallığın salnaməsini gələcək nəslə çatdırmaq. Burada daha bir cəhəti qabartmağa ehtiyac duyuram: Hüseyn Əsgərov bu təqdimatda son dərəcə səmimidir.

Hüseyn Əsgərova görə, çoxlarının düşündüyü kimi, dünya beşgünlük dünya deyil, əbədidir, insan dünyanın müvəqqəti sakinidir. Və "gəlimli, gedimli, son ucu ölümlü dünyada" elə yaşamaq lazımdır ki, özündən sonra qoyduğun izlər görünsün, səndən sonra gələnlər sənin yaratdıqlarından bəhrələnmək imkanı qazansınlar.

Yeri gəlmişkən, adıçəkilən kitabın Hüseyn Əsgərov üçün elə bu xeyirxah missiyanı yerinə yetirəcəyinə də heç bir şübhəm yoxdur.

Kitab "Publisistika", "Vüsala səsləyən ayrılıq", "Felyetonlar", "Satirik hekayələr", "Tərcümələr", "Mirzə Cəlil dünyasına səyahət" adlı bölmələrdən ibarətdir. Müəllifin publisistikasında diqqəti bir çox məqamlar çəkir ki, həmin məqamlar bugünkü gənc jurnalistlər üçün bir örnək ola bilər. Hüseyn Əsgərov həmin janrda qələmə aldığı yazılarda cəmiyyəti düşündürən məsələləri layaraq bir müddət aparmış olduğu verilişdir), "Hicranın vüsala həsrət qolları", "Dəmir iradənin tikanlı məftillərdən güclü olduğu gün", "Qəm karvanının yükü".

Qeyd olunmalıdır ki, bu yazılar (televiziya verilişlərinin mətnləri) öz məna yükü ilə oxucuları düşünməyə, nəticə çıxarmağa vadar edir, bugünkü qloballaşan dünyada baş verən hadisələrə yaşadığımız zamanın deyil, daha uzaq gələcəyin prizmasından baxmağa səsləyir, onlara üstündə gəzdiyimiz torpağın ata-baba əmanəti olduğu üçün yurd yerlərimizin sabahına cavabdehlik hisslərini xatırladır.

Müəllif qələmə aldığı istər televiziya və radio verilişlərinin mətnlərində, istərsə də hekayə və sənədli yazılarında özünəməxsus ifadə tərzi olduğunu, rastlaşdığı hər hansı müsbət və ya mənfi məqama şəxsi yanaşma formasını ortaya qoyur. Bu məqamda onu da vurğulamaq lazımdır ki, onun təqdimində ictimai fikrin qəbul etdiyi meyarları görürük.

Hüseyn Əsgərovun dahi yazıçımız Cəlil Məmmədquluzadə yaradıcılığına böyük pərəstiş etdiyindən xəbərim var. Müəllifin istənilən yazısında bu pərəstişin təzahürlərini yeni ədəbi formada görürük. Bunu müəllifin satirik hekayələrində, real həyat həqiqətlərinə söykənən felyetonlarında müşahidə etmək olar. Bu baxımdan sovet dönəmi üçün xarakterik olan və o dövrdə qələmə alınması böyük cəsarət tələb edən "Mənziliniz mübarək" felyetonu müəllifin yaşadığı mühitdə gördüyü və haray saldığı bir acınacaqlı səhnəni əks etdirir. Hüseyn Əsgərov bu felyetonla Mirzə Cəlil şinelindən çıxmış bir ziyalı kimi gözümüzdə yüksəlir.

"Aylı bir gecə" hekayəsi müəllifin yaradıcılıq diapazonunun genişliyini ortaya qoyur. Hüseyn Əsgərov bir insanın yaşadığı hissləri bu hekayədə elə qələmə alır ki, özümüzü o hisslərin şahidi kimi görürük. Hekayənin baş qəhrəmanının daxili aləminin, onun mənəvi təmizliyinin təqdimində heç bir uydurma təsiri bağışlayan məqam yoxdur.

**P.S.** *Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Hüseyn Əsgərovun "Aylı bir gecə" kitabından doğan təəssüratlar peşəkar bir ədəbiyyatçının deyil, sıravi bir ziyalının təəssüratlarıdır. "Aylı bir gecə"nin oxucularda yaradacağı ovqat, yəqin ki, təəssüratların ifadəsindən güclü olacaq. Buna inanır və müəllifə yeni yaradıcılıq uğurları arzulayırıq.*

Muxtar MƏMMƏDOV

**İtmişdir**

Naxçıvan şəhəri, "21-ci məhəllə" 74^A ünvanında yaşayan Kazımov Nazim Aydın oğlunun adına Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 16.05.2014-cü il tarixdə verilmiş 0036238 seriya nömrəli çıxarış və AA-009028 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

# Mini-futbol üzrə şəhər birinciliyi başa çatıb

Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbinin mini-futbol meydançasında məktəblilərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə iki yaş qrupunda (2001-2002 və 2003-2004-cü illər təvəllüdlü) yeniyetmələr arasında mini-futbol üzrə Naxçıvan şəhər birinciliyi keçirilib. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin birgə təşkil etdiyi birinciliyin açılışında çıxış edən Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov yeniyetmə futbolçulara yarışın məqsədi haqda məlumat verib. Sonra Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin direktoru Rauf Hüseynov çıxış edərək idmançılara uğurlar arzulayıb.

Birincilikdə 9 komanda mübarizə aparıb. 2001-2002-ci illər təvəllüdlü yeniyetmələrin yarışında 5 komanda meydana çıxıb. Daha inamlı təsir bağışlayan "UGİM-2" və "Rabitəçi" komandaları final vəsiqə qazanıblar. Həlledici görüşdə qalib gələn "UGİM-2" komandası yarışın baş mükafatına layiq görülüb. "Gənc İlhamçılar" komandası isə üçüncülüklə kifayətlənib.

2003-2004-cü illər təvəllüdlü yeniyetmələrin mübarizəsində isə 4 komanda qalibin adını müəyyənləşdirmək üçün meydana çıxıb. Bu yaş qrupunda "Rabitəçi" komandası finalda "UGİM-1" komandasını məğlub edib və yarışın qalibi olub. "Gənc Heydərçilər" komandası isə yarışı üçüncü pillədə başa vurub.

Sonda qalib komandalara təşkilatçıların diplomları təqdim olunub.

Ceyhun MƏMMƏDOV

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 990